# Qrup nümayəndələri ilə görüş

Noyabrın 5-də Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin rektoru professor Rahim Hüseynov universitetdə yeni seçilmiş qrup nümayəndələri, Tələbə Gənclər Təşkilatının və Tələbə Elmi Cəmiyyətin üzviləri ilə görüşdü. Professor Rahim Hüseynov əvvəlcə yeni seçilmiş qrup nümayəndələrini və Tələbə Gənclər Təşkilatının, Tələbə Elmi Cəmiyyətin üzvlərini təbrik etdi, onlara işlərində müvəffəqiyyətlər arzuladı.

Universitetin daxili nizam-intizam qaydalarından danışan rektor daxili nizam-intizam qaydalarına əməl olunmasında, xüsusilə tələbələrin dərsə davamiyyətində universitetin professor-müəlim heyətinin, dekanların, həm də qrup nümayəndələrinin üzərinə böyük vəzifələr düşdüyünü dedi. Onlara gündəlik işlərini Rektorluq tərəfindən təsdiq edilmiş **"qrup nümayəndələri haqqında təlimata"** uyğun qurumalarını tövsiyyə etdi.

Professor Rahim Hüseynov yüksək təhsil ilə yanaşı tələbələrin ictimai işlərdə də fəal iştirakının vacibliyini bildirdi. Bu sahədə Tələbə Gənclər Təşkilatının qarşısında duran vəzifələrdən danışdı. Tələbələrin təkcə Universitet həyatında deyil rayonda, eləcədə Respublikada keçirilən tədbirlərdə əvvəlki illərdə olduğu kimi bu illərdə də fəal iştirak etmələrini tapşırdı.